**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsi haqqında**

**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsi (bundan sonra – Baş idarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Aparatının müstəqil struktur qurumudur.

1.2. Baş İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, beynəlxalq təşkilatların aidiyyəti sənədlərini, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu, "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında", "Cinayət işlərinə dair hüquqi yardım haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 iyul tarixli 97 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Dövlət Protokolunun Əsas Qaydaları"nı, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Baş idarə fəaliyyətini Nazirliyin Aparatının struktur qurumları, strukturuna daxil olan qurumları (bundan sonra - struktur qurumlar), dövlət və yerli özünüidarə orqanları, habelə beynəlxalq təşkilatlar, xarici dövlətlərin müvafiq səlahiyyətli orqanları, müəyyən edilmiş qaydada xarici dövlətlərin səfirlikləri və digər qurumlarla əlaqəli həyata keçirir.

1.4. Baş idarə üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi və öz adı həkk olunmuş möhürə və müvafiq ştamplara malikdir.

## 2. Baş idarənin fəaliyyət istiqamətləri

2. Baş idarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Nazirliyin səlahiyyətinə aid olan məsələlər üzrə beynəlxalq müqavilələrin layihələrinin hazırlanması, razılaşdırılması və bağlanılmasını təşkil edir;

2.1.2. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn və Nazirliyin səlahiyyətlərinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin icrasını və hüquqların həyata keçirilməsini təmin edir;

2.1.3. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin layihələrinə və digər aidiyyəti məsələlərə dair rəylər verir;

2.1.4. ədliyyə, hüquqi yardım, ekstradisiya (təslimetmə), azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi sahəsində beynəlxalq sənədlərin öyrənilməsi və Azərbaycan Respublikasının onlara qoşulmasına dair təkliflər vermək;

2.1.5. Nazirliklə xarici dövlətlərin ədliyyə orqanları arasında, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq, ədliyyə sahəsində insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi sahəsində əlaqələr yaradır;

2.1.6. mülki və cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və məhkumların verilməsi sahəsində yerli və xarici dövlətlərin səlahiyyətli qurumları ilə əməkdaşlığı həyata keçirir;

2.1.7. struktur qurumlarla birlikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrindən, o cümlədən insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsindən irəli gələn öhdəliklərin icrası ilə bağlı Azərbaycan Respublikası tərəfindən beynəlxalq təşkilatlara təqdim olunan dövri hesabatların hazırlanmasında iştirak edir;

2.1.8. Nazirliyin rəhbərliyinin xarici ölkələrə səfərlərinin, habelə xarici dövlətlərin və beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşlərinin protokol təminatını həyata keçirir;

2.1.9. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Baş idarənin vəzifələri

3.1**.** Baş idarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Azərbaycan Respublikasının xarici dövlətlərlə bağlanmış mülki, ailə, ticarət və cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələrindən, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı hüquqi yardım haqqında digər beynəlxalq müqavilələrdən irəli gələn və Nazirliyin səlahiyyətlərinə aid olan məsələlər üzrə öhdəliklərin icrasını və hüquqların həyata keçirilməsini, həmçinin Azərbaycan Respublikasının hüquqi mahiyyət kəsb edən sənədlərinin sorğu əsasında xarici dövlətlərə və beynəlxalq təşkilatlara verilməsini müəyyən edilmiş qaydada təmin etmək;

3.1.2. Azərbaycan Respublikasının iştirakçısı olduğu ekstradisiya (təslimetmə) və azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasını və hüquqların həyata keçirilməsini müəyyən edilmiş qaydada təmin etmək;

3.1.3. struktur qurumlara və digər orqanlara Nazirliyin səlahiyyətlərinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası və hüquqların həyata keçirilməsi ilə əlaqədar izahlar vermək;

3.1.4. Azərbaycan Respublikasının xarici dövlətlərlə mülki, ailə, ticarət və cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya (təslimetmə), azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi və əməkdaşlıq haqqında beynəlxalq müqavilə layihələrinin hazırlanması, razılaşdırılması və bağlanması ilə əlaqədar zəruri tədbirləri həyata keçirmək, bağlanmış müqavilələrə əlavə və dəyişikliklərin edilməsinə dair təkliflər vermək;

3.1.5. struktur qurumlarla birlikdə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması haqqında təkliflərə və həmin müqavilələrin mətnlərinə dair rəy vermək;

3.1.6. beynəlxalq hüquqi aktların öyrənilməsi və Azərbaycan Respublikasının onlara qoşulmasına dair rəy və təkliflər vermək;

3.1.7. struktur qurumları xarici dövlətlərin ədliyyə idarələrinin və beynəlxalq təşkilatların iş təcrübəsi, habelə xarici dövlətlərin qanunvericiliyi və beynəlxalq hüquqi aktlar barədə məlumatlandırmaq;

3.1.8. Nazirliyin rəhbərliyinin dəvəti ilə Azərbaycan Respublikasına səfər edən xarici dövlətlərin və beynəlxalq təşkilatların rəsmi nümayəndə heyətlərinin səfərlərini təşkil etmək;

3.1.9. Nazirliyin rəhbərliyinin xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərini təşkil etmək;

3.1.10. Nazirliyin rəhbərliyinin xarici səfərlərini təşkil etmək;

3.1.11. struktur qurumların beynəlxalq əlaqələrini koordinasiya etmək, bu işdə onlara köməklik göstərmək;

3.1.12. Nazirliyin rəhbərliyinin və digər vəzifəli şəxslərinin iştirak etdiyi beynəlxalq tədbirlərin və bu tədbirlərdə iştirakla bağlı hesabatların statistikasını aparmaq;

3.1.13. beynəlxalq tədbirlərdə Nazirliyin təmsil olunmasının məqsədəuyğunluğu barədə rəylər hazırlamaq, bu tədbirlərdə Nazirliyi təmsil edəcək nümayəndələr barədə aidiyyəti struktur qurumlarla birlikdə təkliflər vermək;

3.1.14. struktur qurumların xarici ezamiyyətlərinin təşkilinə köməklik göstərmək;

3.1.15. Nazirliyin rəhbərliyinin və struktur qurumların işçilərinin müvafiq olaraq diplomatik və ya xidməti pasport, nota və viza ilə təmininə kömək etmək;

3.1.16. Nazirliyin rəhbərliyinin xarici ölkələrə səfərlərinin, habelə xarici dövlətlərin və beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşlərinin protokol təminatını həyata keçirmək;

3.1.17. Nazirliyin digər struktur qurumları ilə birlikdə beynəlxalq təşkilatlara təqdim edilməli olan dövri hesabatların, rəylərin və digər sənədlərin hazırlanmasında iştirak etmək;

3.1.18. beynəlxalq təşkilatların Azərbaycan Respublikası üzrə hesabatlarına, tövsiyələrinə, sorğularına və digər sənədlərinə vaxtında reaksiya verilməsi üçün tədbirlər görmək, bu hallar barədə Nazirliyin rəhbərliyini məlumatlandırmaq;

3.1.19. xarici dövlətlər və onların ədliyyə orqanları, aidiyyəti beynəlxalq təşkilatlar, habelə onların rəhbərləri ilə bağlı əlamətdar günlər və digər hadisələr barədə Nazirliyin rəhbərliyini məlumatlandırmaq, beynəlxalq adətlərə uyğun müvafiq müraciətlər hazırlamaq;

3.1.20. ədliyyə sahəsində, o cümlədən ekstradisiya və məhkumların verilməsində insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsini birlikdə həyata keçirmək;

3.1.21. Ekstradisiya və məhkumların verilməsi sahəsində beynəlxalq öhdəliklər və mövcud təcrübə nəzərə alınmaqla bu məsələlər üzrə rəylər vermək və xarici tərəfdaşlarla fəaliyyəti əlaqələndirmək;

3.1.22. İnsan Hüquqları üzrə Müvəkkildən (Ombudsman) daxil olan Baş idarənin fəaliyyət istiqamətlərinə uyğun müraciət və sorğuların icrası məqsədilə aidiyyəti tədbirlər görmək;

3.1.23. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktların layihələri üzrə rəy vermək;

3.1.24. Nazirliyin rəhbərliyinin tapşırıqlarına əsasən tərcümə işini təşkil etmək;

3.1.25. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

## 4. Baş idarənin hüquqları

4.1. Baş idarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. beynəlxalq təşkilatlara, müxtəlif dövlətlərin müvafiq səlahiyyətli orqanlarına, respublikanın dövlət orqanlarına, məhkəmələrə və struktur qurumlara müraciət etmək, sorğu vermək və onlardan məlumat almaq;

4.1.2. Azərbaycan Respublikasının digər dövlət orqanları və müvafiq beynəlxalq təşkilatlarla birlikdə beynəlxalq tədbirlər təşkil etmək;

4.1.3. qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.4. ədliyyə sahəsi üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirliyin rəhbərliyinə təkliflər vermək;

4.1.5. hüquqi yardım, ekstradisiya (təslimetmə), azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi və ədliyyə orqanlarının əməkdaşlığı haqqında beynəlxalq müqavilələrin bağlanması barədə Nazirliyin rəhbərliyinə təkliflər vermək;

4.1.6. insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsinə dair normativ hüquqi aktların, müvafiq proqram və digər sənədlərin tələblərinin, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinin, beynəlxalq və ixtisaslaşdırılmış təşkilatların tövsiyələrinin ədliyyə sistemində yerinə yetirilməsi vəziyyətini aidiyyəti struktur qurumlarla birgə öyrənmək, təhlil etmək, Nazirliyin rəhbərliyinə müvafiq təkliflər vermək;

4.1.7. Nazirliyin digər struktur qurumları ilə birgə ədliyyə sahəsində insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi sahəsində müvafiq tədbirlər təşkil etmək;

4.1.8. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən olunmuş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.9. Baş idarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.1.10. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 5. Baş idarənin fəaliyyətinin təşkil

5.1. Baş idarənin strukturu və ştat vahidlərinin sayı ədliyyə naziri tərəfindən təsdiq olunur.

5.2. Baş idarənin strukturuna Cinayət və mülki işlər üzrə hüquqi yardım idarəsi, onun tərkibində Ekstradisiya və məhkumların verilməsi şöbəsi, Beynəlxalq hüquq və müqavilələr idarəsi və Baş idarənin qrupu (protokol və tərcümə üzrə) daxildir.

5.3. Baş idarəyə ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş idarə rəisinin ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Baş idarənin rəis müavinləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Baş idarənin rəis müavinləri və digər işçiləri öz funksiyalarını bu Əsasnaməyə uyğun olaraq vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

5.6. Baş idarənin rəisi olmadıqda onun vəzifələrinin icrası müavinlərindən birinə həvalə edilir.

5.7. Baş idarənin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin rəhbərliyi tərəfindən təsdiq edilmiş illik hədəflər əsasında həyata keçirilir.

5.8. Baş idarədə işin təşkili və vəziyyəti, Nazirliyin rəhbərliyi tərəfindən təsdiq edilmiş illik hədəflərdə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar məsələlər mütəmadi olaraq Baş idarə rəisinin yanında keçirilən iclaslarda müzakirə edilir.

**5.9. Baş idarənin rəisi:**

5.9.1. Baş idarənin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.9.2. Baş idarənin işçiləri arasında vəzifə və iş bölgüsünü aparır;

5.9.3. Baş idarənin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

5.9.4. Baş idarənin fəaliyyətini struktur qurumlarla əlaqələndirir;

5.9.5. Baş idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

5.9.6. Nazirliyin kollegiya qərarlarının, Nazirlik üzrə əmr və sərəncamlarda, habelə Nazirliyin iş planında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin icrasına nəzarəti təşkil edir;

5.9.7. səlahiyyəti daxilində Baş idarənin işçilərinə icrası məcburi olan sərəncam və digər yazılı və şifahi göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.9.8. Baş idarənin müvafiq hesabatlarını təsdiq edir;

5.9.9. zəruri hallarda xüsusi əhəmiyyətli və mürəkkəb sənədlərin icrasını bir neçə işçiyə tapşırır və ya onları bir işçinin icraatından digər işçinin icraatına verir;

5.9.10. xarici dövlətlər və onların ədliyyə orqanları, aidiyyəti beynəlxalq təşkilatlar, habelə onların rəhbərləri ilə bağlı əlamətdar günlər və digər hadisələr barədə Nazirliyin rəhbərliyini məlumatlandırır, beynəlxalq adətlərə uyğun müvafiq müraciətlərin hazırlanmasını təmin edir;

5.9.11. Baş idarəyə yeni qəbul edilmiş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarəti həyata keçirir;

5.9.12. Baş idarədə işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.13. Baş idarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür və bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.14. Baş idarənin kargüzarlıq işini və məxfilik rejimini təşkil edir;

5.9.15. vətəndaşları qəbul edir;

5.9.16. səlahiyyətləri daxilində müvafiq dövlət orqanlarına, məhkəmələrə, hüquqi və fiziki şəxslərə göndərilən məktubları imzalayır;

5.9.17. səlahiyyətlərin bir hissəsinin həyata keçirilməsini müavinlərinə tapşırır;

5.9.18. öz səlahiyyətləri daxilində digər məsələləri həll edir;

5.9.19. xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

**5.10. Baş idarənin rəis müavinləri aparılmış vəzifə və iş bölgüsü nəzərə alınaraq:**

5.10.1. Baş idarədə işin təşkilini, həmçinin müvafiq idarə və şöbələrin fəaliyyətinin əlaqələndirilməsini təmin edirlər;

5.10.2. səlahiyyətləri daxilində müvafiq dövlət orqanlarına, məhkəmələrə, hüquqi və fiziki şəxslərə göndərilən məktubları imzalayırlar;

5.10.3. əməkdaşları cəlb etməklə ümumiləşdirmələr aparır, Baş idarə tərəfindən görülmüş işlərə dair hesabatlar hazırlayır və Baş idarənin rəisinə təqdim edirlər;

5.10.4. Baş idarənin fəaliyyəti ilə bağlı məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayırlar;

5.10.5. aidiyyəti sahədə fəaliyyətin təkmilləşdirilməsi üzrə Baş idarənin rəisinə təkliflər verirlər;

5.10.6. əməkdaşların icraatında olan sənədlərin düzgün və vaxtında icra olunmasını təmin edirlər;

5.10.7. vətəndaşları qəbul edirlər;

5.10.8. kargüzarlıq işini və məxfilik rejimini təşkil edirlər;

5.10.9. hesabatlarını Baş idarə rəhbərliyinə təqdim edirlər;

5.10.10. yeni təyin olunmuş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarət edirlər;

5.10.11. peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edirlər;

5.10.12. vəzifə bölgüsünə uyğun olaraq digər funksiyaları yerinə yetirir, xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin və Baş idarə rəisinin tapşırıqlarını icra edirlər.

## 6. Baş idarənin strukturuna daxil olan idarələrin, şöbənin (qrupun) vəzifələri

**6.1. Cinayət və mülki işlər üzrə hüquqi yardım idarəsinin vəzifələri aşağıdakılardır:**

6.1.1. Azərbaycan Respublikasının xarici dövlətlərlə bağlanmış mülki, ailə, ticarət və cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələrindən, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı hüquqi yardım haqqında digər beynəlxalq müqavilələrdən irəli gələn və Nazirliyin səlahiyyətlərinə aid olan məsələlər üzrə öhdəliklərin icrasını və hüquqların həyata keçirilməsini, həmçinin Azərbaycan Respublikasının hüquqi mahiyyət kəsb edən sənədlərinin sorğu əsasında xarici

dövlətlərə və beynəlxalq təşkilatlara verilməsini müəyyən edilmiş qaydada təmin etmək;

6.1.2. İdarənin səlahiyyətlərinə aid məsələlər üzrə beynəlxalq müqavilə layihələrinin razılaşdırılmasında iştirak etmək:

6.1.3. hüquqi yardım haqqında beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin Nazirliyin digər struktur qurumları tərəfindən düzgün icrasının təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. xarici dövlətlərin səlahiyyətli orqanlarından müəyyən edilmiş qaydada daxil olan sorğuları, məhkəmə tapşırıqlarını və digər müraciətləri icra etmək;

6.1.5. hüquqi yardımın göstərilməsi ilə bağlı vətəndaşların müraciətlərinə baxmaq, müvafiq izahlar vermək və lazımi tədbirlər görmək;

6.1.6. idarənin səlahiyyətlərinə aid məsələlər üzrə vətəndaşları qəbul etmək və digər aidiyyəti tədbirlər görmək;

6.1.7. fəaliyyət istiqamətləri üzrə və Baş idarənin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

**6.1.8. Cinayət və mülki işlər üzrə hüquqi yardım idarəsinin Ekstradisiya və məhkumların verilməsi şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.1.8.1. Azərbaycan Respublikasının iştirakçısı olduğu ekstradisiya (təslimetmə) və azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasını və hüquqların həyata keçirilməsini müəyyən edilmiş qaydada təmin etmək;

6.1.8.2. Azərbaycan Respublikasının xarici dövlətlərlə cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya (təslimetmə), azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi;

6.1.8.3. ekstradisiya və məhkumların verilməsində insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsini struktur qurumlarla birlikdə həyata keçirmək;

6.1.8.4. Ekstradisiya və məhkumların verilməsi sahəsində beynəlxalq öhdəliklər və mövcud təcrübə nəzərə alınmaqla bu məsələlər üzrə rəylər vermək və xarici tərəfdaşlarla fəaliyyəti əlaqələndirmək;

6.1.8.5.İnsan Hüquqları üzrə Müvəkkildən (Ombudsman) daxil olan müraciət və sorğuların icrası məqsədilə aidiyyəti tədbirlər görmək;

6.1.8.6 fəaliyyət istiqamətləri üzrə və Baş idarənin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

**6.2. Beynəlxalq hüquq və müqavilələr idarəsinin vəzifələri aşağıdakılardır:**

6.2.1. ədliyyə, hüquqi yardım, ekstradisiya (təslimetmə), azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi və ədliyyə orqanlarının əməkdaşlığı haqqında beynəlxalq müqavilə layihələrinin hazırlanması, razılaşdırılması və bağlanması ilə əlaqədar zəruri tədbirləri həyata keçirmək, bağlanmış müqavilələrə əlavə və dəyişikliklərin edilməsinə dair təkliflər vermək;

6.2.2. struktur qurumlarla birlikdə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ləğv edilməsi haqqında təkliflərə dair rəy vermək;

6.2.3. ədliyyə, hüquqi yardım, ekstradisiya (təslimetmə), azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi sahəsində beynəlxalq sənədlərin öyrənilməsi və Azərbaycan Respublikasının onlara qoşulmasına dair təkliflər vermək;

6.2.4. Nazirliyin digər struktur qurumları ilə birlikdə beynəlxalq təşkilatlara təqdim edilməli olan dövri hesabatların, rəylərin və digər sənədlərin hazırlanmasında iştirak etmək;

6.2.5. beynəlxalq təşkilatların Azərbaycan Respublikası üzrə hesabatlarına, tövsiyələrinə, sorğularına və digər sənədlərinə vaxtında reaksiya verilməsi üçün tədbirlər görmək, bu hallar barədə Baş idarənin rəhbərliyini məlumatlandırmaq;

6.2.6. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktların layihələrinə rəy vermək;

6.2.7. insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsinə dair normativ hüquqi aktların, müvafiq proqram və digər sənədlərin tələblərinin, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinin, beynəlxalq və ixtisaslaşdırılmış təşkilatların tövsiyələrinin ədliyyə sistemində yerinə yetirilməsi vəziyyətini aidiyyəti struktur qurumlarla birgə öyrənmək, təhlil etmək, Nazirliyin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.2.8. Nazirliyin digər struktur qurumları ilə birgə ədliyyə sahəsində insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi sahəsində müvafiq tədbirlər təşkil etmək;

6.2.9. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

**6.3. Baş idarənin tərkibində Qrupun (protokol və tərcümə üzrə) vəzifələri aşağıdakılardır:**

6.3.1. Nazirliyin rəhbərliyinin dəvəti ilə Azərbaycan Respublikasına səfər edən xarici dövlətlərin və beynəlxalq təşkilatların rəsmi nümayəndə heyətlərinin səfərlərini təşkil etmək;

6.3.2. Nazirliyin rəhbərliyinin xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərini təşkil etmək;

6.3.3. Nazirliyin rəhbərliyinin xarici səfərlərini təşkil etmək;

6.3.4. struktur qurumların beynəlxalq əlaqələrini koordinasiya etmək, bu işdə onlara köməklik göstərmək;

6.3.5. Nazirliyin rəhbərliyinin və digər vəzifəli şəxslərinin iştirak etdiyi beynəlxalq tədbirlərin və bu tədbirlərdə iştirakla bağlı hesabatların statistikasını aparmaq;

6.3.6. beynəlxalq tədbirlərdə Nazirliyin təmsil olunmasının məqsədəuyğunluğu barədə rəylər hazırlamaq, bu tədbirlərdə Nazirliyi təmsil edəcək nümayəndələr barədə aidiyyəti struktur qurumlarla birlikdə təkliflər vermək;

6.3.7. struktur qurumların xarici ezamiyyətlərinin təşkilinə köməklik göstərmək;

6.3.8. Nazirliyin rəhbərliyinin və struktur qurumların işçilərinin müvafiq olaraq diplomatik və ya xidməti pasport, nota və viza ilə təmininə kömək etmək;

6.3.9. Nazirliyin rəhbərliyinin xarici ölkələrə səfərlərinin, habelə xarici dövlətlərin və beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşlərinin protokol təminatını həyata keçirmək;

6.3.10. xarici dövlətlər və onların ədliyyə orqanları, aidiyyəti beynəlxalq təşkilatlar, habelə onların rəhbərləri ilə bağlı əlamətdar günlər və digər hadisələr barədə Baş idarənin rəhbərliyini məlumatlandırmaq, beynəlxalq adətlərə uyğun müvafiq müraciətlər hazırlamaq;

6.3.11. Nazirliyin rəhbərliyinin tapşırıqlarına əsasən tərcümə işini təşkil etmək;

6.3.12. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.